Proqram üçün tələblər aşağıdakı kimidir:

- namizəd 2006-2009-cu illərdə Almaniyada elan edilmiş hər hansı bir təqaüd proqramının iştirakçısı olmamalı;

- proqramda iştirak edəcək namizəd Azərbaycana qayıtdıqdan sonra ən azı 6 il ərzində Alman dili müəllimi olaraq fəaliyyətini davam etdirməlidir.

Bundan başqa, proqramda iştirak edəcək müəllimlər Höte İnstitutunun Azərbaycanda keçirdiyi tədbirlərdə mütəmadi olaraq iştirak etməli və seminarlarda əldə etdikləri bilik və təcrübəni öz ölkələrində tətbiq etməlidirlər.

Təqaüd proqramında iştirak etmək arzusunda olan namizədlər müvafiq qaydada doldurulmuş ərizə formasını cari ilin 6 noyabr tarixinə qədər Almaniya Federativ Respublikasının ölkəmizdəki səfirliyinə təqdim etməlidirlər.

Proqram barədə ətraflı məlumatları və ərizə formalarını www.goethe.de/ins/ge/tif/lhr internet səhifəsindən əldə edə bilərsiniz. Ərizə formalarını, Almaniya Federativ Respublikasının ölkəmizdəki səfirliyindən də əldə etmək mümkündür.